ha yuxarıda idim!" "Amma mən buludlara çatmışdım, buludların içində elə gizlənmişdim ki, siz məni görmədiniz." Buna bənzər mübahisələrdən yorulmurdular.

Yay keçdi, məktəbdə dərslər başlandı. Cuppulu birinci sinifdə oxumağa başladı. Bir gün siniflərinin iri pəncərəsindən havada dalğalanan, burulub-açılan, səs-küylə gecikənləri gözləyən və nizamlanan böyük bir quş dəstəsi gördü.Yanında oturan dostu Yaşarı dümsüklədi:

-Gör nə qədər quş var! Bəlkə də bir milyon olar.

Yaşar güldü:

-Nə tez saydın?

Müəllimləri onların baxdıqları tərəfə baxdı.

-Hə, uşaqlar, qaranquşlarınız köçüb gedir. Uşaqları sevdiklərinə görə məktəbimizin üstündə yığışırlar. Bütün qonşu kəndlərin qaranquşlar da bura toplanır, sonra sizinlə vidalaşıb, uçub gedəcəklər.

Yaşar öz-özünə dedi:

"Ay havada uçan durna."

Müəllim dedi:

-Hə, gözəl mahnıdır! Heyif ki, köçüb gedən qaranquşlar haqqında hələ mahnı yoxdur.

Dərsdən sonra Cuppulu evə tələsdi. Eyvana çıxan kimi, gözü qaranquşları axtardı. Ancaq yuva boş idi.

Cuppulu kədərləndi.

O payız havalar sərt keçdi. Külək yağışı-qarı düz eyvana vururdu.

Ata gileylənirdi.

-Otaqlar isinmir. Eyvanı aynabənd etməliyik.

Ustalar gəlib ölçüb-biçdilər və bir həftə sonra eyvan hər tərəfdən şüşələndi.

Qaranquşlar heç kimin yadına düşmədi.

***

Yeddi aydan sonra qaranquşlar yenə uçub gəldilər. Bilənciklə Güləncik yenə öz evlərinə döndülər. Balaları ayrılmış, hərəsi öz sevdiyinə qoşulub, öz yuvalarını qurmağa getmişdilər.

Yuxarıdan baxanda hər şey ötən yazda olduğu kimiydi və yenə nənə bağçada işləyirdi.

Əvvəlcə yuva təmizlənməli idi. Ancaq qanadları aynabəndin şüşələrinə çırpılanda çaşıb qaldılar.

-Cik-cik-cik .

Güləncinin gülüşü yarıda qırılmışdı.

-Sən bilənsən, Biləncik. Bu nədir belə?

Şalbandakı yuvalarını gördülər.Yuva da, altındakı kardon da yerində idi. Di gəl ona yaxınlaşa bilmirdilər.

Bütün günü yol axtardılar amma yuvalarına yol qalmamışdı.

-Bəs biz neyləyək? - Güləncik həyəcanla həyətin üstündə dolaşırdı.

Yeni yuva qurmalıyıq. - dedi Biləncik.

Uçub getdilər.

Başqa evləri, bağları bəyənmədilər. Bəyəndikləri də öz evləri kimi qapanmışdı, ya da başqa quşlarındı. Geri dönməkdən başqa yol tapmadılar.

Nənə onları gördü.

-Vay, Cuppulu, bax, qaranquşlarımız gəldi.

Cuppulu razılıqla gülümsədi.

- Qoy gəlsinlər, onsuz da yuvalarının yolu bağlanıb.

Nənə pərt oldu.

- Niyə onları düşünməmişik? Yuvasız qaldılar, inciyəcəklər bizdən.

Qaranquşlar yuxarıdan baxır və yenə nənənin onları görəndə necə sevindiyini hiss edirdilər.

- Ey nənəcik, gəlmişik. Bəs bizi yuvamıza niyə buraxmırsız?

"Cəhənnəm olsun yağış da, qar da.Gərək heç aynabənd düzəltdirməyərdik!" - deyə düşündü nənə.

Qaranquşlar uçub havalandılar. Nənə:

- Ey, uçub getməyin. - deyə pıçıldadı. Sanki quşlar onu eşidəcəkdilər. Amma onu da bilirdi ki, quşların uçub getməkdən başqa yolu qalmayıb. Axı onların yuvaları olmalıdır. Yeni balalar gətirməlidirlər həyata.

Sonra nənənin ev işlərinə başı qarışdı,quşlar haqqında düşünmək istəmirdi. Çünki onları düşünəndə ürəyi sıxılırdı.

Güləncik Biləncıyə dedi:

- İndi biz neyləyək? Axı sən hər şeyi bilənsən!

Biləncək uça-uça düşünürdü. Birdən yadına düşdü ki, əvvəlki illərdə onlar bəzən yuvalarına evin bağa baxan və yazdan-payıza bağlanmayan pəncərələrindən də girirdilər. Pəncərədən həmişə boş olan sakit otağa uçur, ordan keçıb eyvana çıxırdılar...

Nənə ara-sıra qaraqnquşları bağçanın üstündə dolanan görürdü və sevinirdi ki, onlar hardasa yaxında yuva qurublar.

Təxminən on gündən sonra birdən evin bağçaya baxan kəllə gözündən nənənin səsi yüksəldi.

-Cuppulu, Cuppulu, bura gəl.

Cuppulu həyətdə yer şumlayan atasına kömək edirdi. Nənəsinin səsini eşidib beli yerə qoyub evə tələsdi." Görəsən nə olub?"

Qonaq otağının qapısı açıqdı. Nənə otağın ortasında dayanıb,heyrətlə başının üstündəki çılçırağa baxırdı.

-Sən bir bura bax! Gör mənim qaranquşlarım nə qədər vəfalı və ağıllıdırlar.

Ağıllı olsalar da, gördükləri iş ağlasığan deyildi.

Biləncıklə Güləncik iri pəncərələri bağlanmayan otaqda, düz çilçırağın üstündə yuva qurmuşdular. Göstərmək istəmişdilər ki, siz bizi eyvana buraxmadınız, biz sizin evinizin içinə girdik.

- Cuppulu, gör necə cəsarətlidirlər?

Nənə gülümsədi.

-Bir daha onlarla işin olmasın. Quş quşluğuyla öyrəşdiyi yuvasını atıb getmir, bizdən əl çəkmək istəmir, bizə nə olub? Axı quşların da öz duası var. Köməksiz olduqlarına görə Allah onların duasını daha tez eşidir.

-Güləncıklə Biləncik yenə balalarını böyütdülər və yenə payızda uçub getdilər.

***

Bulud kimi kəndin üstünü tutan qaranquş, sığırçın dəstələri uçub gedəndən, bülbüllərin yay uzunu susmayan nəğməsi bir gecə qaranlığına qarışıb əriyəndən sonra dünyaya səssizlik çökdü. Sərçələrin cik-ciki artmışdı. "İnsanlara "görürsünüzmü, soyuqdan qorxdular, yenə uçub getdilər. Ancaq biz burda, sizin yanınızdayıq!" - deyirdilər.

Toylar başlanmışdı, yol üstündəki balaca elektrik dəyirmanına taxıl gətirənlərin sayı artmışdı, bağ-bağatın meyvəsi yığılır, yaylaqdan enən sürülər ara yolları doldurur, havanın sərinləşməsi ilə adamlar evlərə yığışmır, gecə yarısınadək on beş günlük Ayın süd selində yuyunan dünyanın gəlişindən-gedişindən söhbət açırdılar. Toylar da bir yandan... Buna baxmayaraq bu canlanan həyat, bu səs-küy quşların köçməsi ilə yaranan boşluğu doldura bilmir.

Cuppulu nənəsi ilə zarafatlaşır:

-Görürsən, ay nənə, sənin qaranquşların bizimlə vidalaşmadan köçüb gedirlər.

-Onlar sağollaşmadan gedərdilərmi? Başını qaldırıb baxsan, görərdin. Neçə dəfə dolandılar evimizin üstündə. Sanki balalarına öyrədirdilər ki, bax, bura bizim evimizdir. Buranı unutmayın!..

***

Payız da, qış da keçib getdi. Yenə gözəl bir bahar günü qaranquş axını kəndin üstünü tutdu və dəstədən ayrılan Biləncıklə Güləncik öz evlərinə uçdular. Evin qabağında bir ağ maşın dayanmışdı.

Adamlar nənənin qoluna girib maşına doğru aparırdılar.

Güləncıyi qorxu bürüdü.

- Cik-cik, ay aman, nənəmizi hara aparırlar?

Nənə başını yuxarı qaldırıb baxmadı və quşları görmədi.

Qaranquşlar həyətdən çıxan maşının arxasınca uçdular. Kəndin hansı evinə getsə, biləcəkdilər.Yəqin yenə qayıdıb gələcəkdi. Öz evlərini təmizləməliydilər. Ancaq bu dəfə evin pəncərələri də bağlıydı. Qaranquşlar yenidən havalandılar və maşının getdiyi istiqamətdə uçdular. Onlar nənənin uzağa, şəhərdəki oğlunun yanına getdiyini bilmirdilər.

***

May ayının ortalarında nənə sağaldı və oğlunun şəhər kənarındakı evinin ikinci mərtəbəsindəki balkona çıxdı. Burda onun dincəlməsi üçün kreslo qoymuşdular. Hava açıq və isti idi. Hündür balkondan evlərə, bağlara baxanda ürəyi açıldı. Birdən bala quşların tanış çıvıldəşməsi çatdı qulağına. Nənə diksindi. Başını qaldırıb tavana baxanda heyrətləndi. Başının üstündəki yuvadan balaca quşcığazların açıq ağızları görünürdü. Elə bu vaxt böyük qaranquşlar dimdiklərində yem uçub gəldilər. Nənəni görən quşlar tez yemi balalarıa verib nənəni salamladılar:

-Cik-cik!

Doymaq bilməyən balalarının civiltisinə baxmayaraq bir xeyli nənənin başı üstündə dolandılar.

Nənə çaşıb qalmışdı. Doğrudanmı quşlar bu uzaq yolu uçub onun ardınca gəlmişdilər?

-Oy! Nə yaxşı gəlmisiniz! Yəqin məni sizin duanız sağaltdı...

*2-3 aprel 2017*

**Ədəbiyyat qəzeti.- 2017.- 13 may.- S. 13.**